# 20 Yanvar–qəhrəmanlıq salnaməsi

## Qəbələ ictimaiyyəti 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünü qeyd edib

***Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsi respublikamızda hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edilir. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən xalq 1990-cı ilin yanvarında Bakının küçə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirib. Daha da genişlənən xalq hərəkatından qorxuya düşən SSRİ rəhbərliyinin göstərişi ilə Bakıda Sovet ordusunun döyüş hissələri azadlıq carçılarına və kütləyə misli görünməmiş divan tutub. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu heç bir fövqəladə vəziyyət elan edilmədən Bakıda əliyalın insanlara qarşı qəfil hərbi əməliyyatlara başlayıb.***





Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Böyük itkilər və günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinin qanlı səhifəsi idi. Faciə zamanı 137 insan öldürülüb, 744 adam ağır xəsarət alıb, 841 nəfər isə qanunsuz olaraq həbs edilib.

Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz öz suverenliyini əldə etdi. Həmin qanlı hadisələrdən 29 il keçsə də, xalqımız o müdhiş gecəni daim xatırlayır, bu faciəni törədənlərə öz dərin nifrətini bildirir.

Zaman keçsə də XX əsrin ən qanlı hadisələrindən biri olan və Azərbaycanın şanlı tarixində qanla yazılmış 20 Yanvar faciəsi yaddaşlarda əbədiyyətən yaşayacaq və xalqımız öz müstəqilliyini göz bəbəyi kimi qoruyacaqdır.



Qanlı Yanvar faciəsinin səhəri günü həyatını təhlükəyə ataraq ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsini, xalqımızın kədərini bölüşməsini və kommunist rejiminin respublikamızda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə pislədiyini yaşlı nəsil çox gözəl xatırlayır. Ulu öndərin bu cəsarətli addımı xalqımıza təpər və güc verib, ona dayaq və təsəlli olub.

* * *

20 Yanvar faciəsinin 29-cu ildönümü ölkəmizin hər yerində olduğu kimi Qəbələdə də geniş qeyd olunub.

Hələ yanvar ayının ilk günlərindən başlayaraq, rayon icra hakimiyyəti başçısının sərəncamı ilə təsdiq olunmuş "20 Yanvar Ümumxalq Hüzn Gününün 29-cu ildönümünün keçirilməsinə dair tədbirlər planı"na uyğun olaraq rayonun bütün yaşayış məntəqələrində, idarə, təşkilat və müəssisələrində, məktəblərdə 20 Yanvara həsr olunmuş müxtəlif silsilə tədbirlər hazırlanıb. Ümumtəhsil ocaqlarında 20 Yanvar faciəsini əks etdirən stendlər, rəsm sərgiləri, şeir, inşa yazı müsabiqələri, ədəbi-bədii kompozisiyalar təşkil olunub, şagirdlərdə vətənpərvərlik hisslərinin aşılanması istiqamətində digər tədbirlər həyata keçirilib.

Yanvarın 20-də isə rayon ictimaiyyətinin çoxminlik izdihamı şəhərimizdəki Şəhidlər abidə kompleksinin qarşısına toplaşıb. Saat 11-də başlanan mərasimdə əvvəlcə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev abidə kompleksində alovlanan "Əbədi məşəl"in önünə və şəhidlərin məzarları üzərinə gül dəstələri qoyub.

Sonra kompleksə Qəbələ ictimaiyyətinin ziyarəti başlayıb. Əllərində tər qərənfillər tutmuş izdihamlı insan axını dərin ehtiram və qürur hissi ilə azadlığımız uğrunda canlarından keçmiş şəhidlərimizin kompleksdəki məzarlarını və xatirə lövhələrini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Saat 12-də şəhərdə hərəkət edən avtomobillər dayanaraq bir dəqiqəlik səs siqnalları ilə qəhrəman Vətən oğullarının müqəddəs xatirəsini anıblar.

Qəbələlilər Azərbaycanın azadlıq salnaməsini öz qanları ilə daş kitabələrə yazan və müdhiş 20 Yanvar gecəsi canını Vətən uğrunda fəda edən qəhrəman insanları heç vaxt unutmur, onların əziz xatirəsini daim uca tutur.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

## YAP qadınlar şurasının tədbiri keçirilib

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının qadınlar şurası 20 Yanvar Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir keçirmişdir.

YAP rayon təşkilatının qərargahında keçirilən tədbirin iştirakçıları ilk öncə rayon uşaq-gənclər inkişaf mərkəzinin təşkil etdiyi 20 Yanvar faciəsinə həsr olunmuş rəsm sərgisinə baxmışlar.



Akt zalında keçirilən toplantını YAP Qəbələ Rayon Təşkilatı qadınlar şurasının sədri, rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova açmışdır. 20 Yanvar və Qarabağ savaşı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Uşaq-gənclər inkişaf mərkəzinin hazırladığı ədəbi-bədii hissədə məktəblilər 20 Yanvar faciəsinə, şəhidlərə həsr olunmuş şeirlər söyləmişlər.

Daşca kənd tam orta məktəbin tarix müəllimi Almaz Əsədova 20 Yanvar faciəsinin səbəbləri, bu qanlı hadisənin tariximizdə, xalqın oyanışında rolu haqqında geniş məlumat vermişdir.

Rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova, Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Nəzakət Abdullayeva, təhsil şöbəsinin metodisti Tərbiyə İsayeva 20 Yanvar faciəsi ilə əlaqədar çıxış etmişlər.

Sonda 20 Yanvar faciəsinə həsr olunmuş videoçarx nümayiş olunmuşdur.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

## Heydər Əliyev Mərkəzində

20 Yanvar xalqımızın azadlıq mübarizəsi tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olub.

Həmin gün öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Bu fikir 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar yanvarın 15-də Heydər Əliyev Mərkəzində ümumtəhsil məktəbləri şagirdləri üçün keçirilən növbəti açıq dərsdə səsləndirilib.



Qeyd olunub ki, xalqın səsinə səs verən ümummilli lider Heydər Əliyev 1990-cı il yanvarın 21-də ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib və qanlı hadisələrə kəskin etirazını bildirib.

Diqqətə çatdırılıb ki, qanlı yanvar gecəsi xalqımızın azadlığı və müstəqilliyi uğrunda canlarını qurban verən oğul və qızlarımız arasında məktəblilər də olub. 13 yaşlı Larisa Məmmədova və İlqar İbrahimov hələ ölümün nə olduğunun fərqində deyildilər. Şəhidlik zirvəsinə yüksələcəkləri ağıllarına da gəlmirdi. Günlərini məktəbli rəfiqələri, dostları ilə xoşbəxt keçirən bu balaca uşaqların kiçik ürəklərindəki böyük Vətən sevgisi, azadlıq arzusu onları da həmin gecə odun, alovun içinə çəkib apardı.

Açıq dərsdə Qəbələ şəhər 4 saylı tam orta məktəbin şagirdlərinin ifasında faciə qurbanlarının xatirəsinə həsr olunan şeirlər səsləndirilib, 20 Yanvar hadisələrinə dair film nümayiş etdirilib.

**"Qəbələ"**